# XXI ƏSRDƏ ÖLKƏNİN PRİORİTETİ İNSAN KAPİTALINI FORMALAŞDIRMAQDIR



**Şahrza Ağayev,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*dosenti, pedaqogika üzrə fəlsəfə doktoru, qabaqcıl təhsil işçisi*
*e-mail: shahrza-a@mail.ru*

**UOT:** 37

**Xülasə**. *Məqalədə hərtərəfli inkişafa səbəb olan keyfiyyətli təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payının davamlı şəkildə artırılması, müasir dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan ömürboyu təhsilə xüsusi önəm verilməsi əsaslandırılır. Bu amillərlə yanaşı, keyfiyyətli təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə prioritetinin rəqabətədavamlılığının təmin olunmasının zəruriliyi, həmçinin insan kapitalının öz təbiətinə görə müxtəlifliyi, vərdiş və kompetensiyanın hadisə və vəziyyətlər üçün ümumi ola bilməsi elmi faktlarla qeyd olunur.*

***Açar sözlər:*** *prioritet, gəlir, iqtisadi, peşə, sərmayə, mərhələ, rəqabət, innovasiyalar, tələblər.*
***Key words:*** *priority, income, economy, profession, investment, phase, competition, innovation, requirements.*
***Ключевые слова:*** *приоритет, доход, экономика, профессия, инвестиции, фаза, конкуренция, инновации, требования.*

İnsan kapitalı anlayışı lüğətə 1961-ci ildə iqtisadçı Teodor Şults tərəfindən daxil edilmişdir. Müasir iqtisadi nəzəriyyədə insan kapitalı kapitalın xüsusi növü hesab olunur. O insanda cəmləşən və ona istehsal və istehlak məqsədləri üçün istifadə imkanı verən, bilik və bacarıqların toplusu kimi səciyyələndirilir. Məşhur iqtisadçı Stenli Fişerə görə isə insan kapitalı insanın gəlir gətirmək bacarığıdır. Bu kapital insanın anadangəlmə bacarıq və istedadından, həmçinin həyatıboyu əldə etdiyi təhsil və səriştəsindən formalaşır. Bu barədə fərqli yanaşmalar da vardır. Məsələn, İqtisadi Əməkdaşlıq Təşkilatının yanaşmasına görə, insan kapitalı şəxsi, sosial-iqtisadi rifahı təmin edən bilik və bacarıqları ehtiva edir. Əmək bazarı üçün isə insan kapitalı – fərdlərə, peşə fəaliyyəti zamanı gəlir gətirə bilən bilik və bacarıqlara qoyulan sərmayədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqındakı sənəddə qeyd olunur ki, müstəqil Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi mərhələsini yaşamaqdadır. Dünyada daim artan rəqabətə hazır olmaq lazımdır. Bunun üçün hər bir ölkənin başlıca prioriteti kimi yüksək rəqabətli insan kapitalını formalaşdırmaq labüddür. Bu məqsədlə müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı inteqrasiya olunmalıdır. Hərtərəfli inkişafa səbəb olan keyfiyyətli təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalı, hazırkı dövrdə kom-

petensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan ömürboyu təhsilə xüsusi önəm verilməlidir. Təhsilin əhatə dairəsi genişləndirilməli və mərhələlərlə müvafiq yaşda olanları əhatə etməlidir.

Təhsilin insanların səlahiyyətlərinin genişləndirilməsini təmin edən ən qiymətli vasitələrdən biri olması getdikcə daha çox dərk edilir. Peşə məktəb və liseyləri müxtəlif peşədən olan sənətkarlara tələbi ödəyən, həmçinin Azərbaycanın unudulmuş və sıradan çıxmaqda olan nadir və ənənəvi sənətkarlıq sahələrinin dirçəldilməsinə yönəldilən ilk peşə təhsili müəssisələridir. Bildiyimiz kimi, peşə məktəblərinə icbari təhsili başa vuran, sənətə meyilli şəxslər, müxtəlif istehsal sahələrində peşə hazırlığını artırmaq istəyən, həmçinin peşəsini dəyişdirmək arzusunda olan gənclər qəbul olunurlar. Peşə məktəblərində orta təhsil verilməsə də, vətəndaşların müxtəlif peşələri öyrənməsi, ixtisasını artırması və yeni ixtisasa yiyələnməsi üçün peşə məktəblərində əlavə tədris kombinatları – kurslar, iri istehsal müəssisələri nəzdində müxtəlif peşə kursları da fəaliyyət göstərir. Peşə liseylərinə qəbul olunan gənclər üç-dörd il ərzində nisbətən mürəkkəb peşələrə yiyələnməklə yanaşı, orta təhsil də alırlar. Peşə liseylərində ümumi orta təhsili başa vurmuş gənclər üçün də müvafiq qruplar təşkil olunur. Təlimata uyğun olaraq peşə məktəb və liseylərinin tədris qruplarında orta sıxlıq, maddi-texniki bazadan asılı olaraq 15 nəfər müəyyən edilir. Qrupların iki yerə bölünməsi müvafiq normativ sənədlə tənzimlənir. Peşə təhsili müəssisələrinin dövlət sifarişi, həmçinin idarə, müəssisə, təşkilat, ayrı-ayrı vətəndaşlarla bağlanmış müqavilələr əsasında fəaliyyət göstərməsi arzuolunandır. Hər bir tarixi mərhələdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Bütün dövrlərdə cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmişdir. Elmi-texniki tərəqqi təhsil sistemi qarşısında həlli vacib daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı informasiya cəmiyyətinin sosial-iqtisadi fəaliyyət sahələrində rəqabətin gücləndiyi, təbii resursların azaldığı müasir dövrdə təhsilin rolu artmaqdadır. Təsadüfi deyildir ki, BMT XXI əsri “təhsil əsri” elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, insan potensialının inkişafına zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu bugünkü qədər heç vaxt aktual olmamışdır.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi onun təhsilinin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, hazırkı mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. Təhlillər sübut edir ki, bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi hiss olunacaq dərəcədə yüksək olub, təxminən 70 faiz təşkil edir. İntellektual mülkiyyətin maddi mülkiyyətdən üstünlüyü ondan ibarətdir ki, xərcləndikcə çoxalır. İntellektual sərvət məhsuldar qüvvəyə çevrildikcə cəmiyyəti və insanları tərəqqiyə aparır [1, s.21].

Cəmiyyətin inkişafının müasir mərhələsində təhsil – insan, cəmiyyət və bütövlükdə dünya üçün mühüm, müəyyənedici bir amildir. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da gəlirlərin səviyyəsi və bütün həyatıboyu əldə olunan təhsil arasında güclü əlaqə vardır. Təsadüfi deyil ki, BMT tərəfindən tərtib edilmiş “İnsanın inkişaf indeksi”nin hesablanmasında, məhz təhsil səviyyəsinin göstəricisi önəmli yer tutur. İnsan kapitalının formalaşması bilavasitə ev təsərrüfatları, müəssisələr və dövlət tərəfindən həyata keçirilir. Bu vəzifəni həll edərkən təhsil almadan fayda əldə etməni müəyyən təhsilə çəkilən xərclərlə müqayisə edirlər. Aydındır ki, təhsilin davam etməsinin əsas iqtisadi arqumenti gələcəkdə istehsal gücünün və əməkhaqqının artımının gözlənilməsidir. Digər bərabər şəraitdə təhsilli işçi daha böyük insan kapitalına malikdir. İnsan kapitalının modeli onu göstərir ki, həyatıboyu məcmu faydalılığının maksimumlaşdırılması o zaman əldə olunur ki, hər bir fərd gənclik dövrünə ən böyük investisiya qoyuluşlarını həyata keçirir. Çünki insan ömrünün son müddətində qoyulan investisiyalar daha çox gəlir gətirmək imkanına malik deyildir [2].

Azərbaycanın uğurlu iqtisadi islahatlar siya-

səti imkan verir ki, əldə olunan gəlirləri humanitar sahələrə, təhsilə, səhiyyəyə, yeni texnologiyaların tətbiq olunmasına yönəldək. Müasir uşaqlarımız bilikli olmalı, dünyada gedən prosesləri izləməli, yeni texnologiyalara yiyələnməlidirlər. İnkişaf etmiş ölkələr təbii resurslar hesabına deyil, intellektual potensiala, yeni texnologiyaların icad olunmasına və tətbiqinə görə inkişaf edirlər.

Hazırda elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiyasını ehtiva edən STEAM proqramı aktuallıq qazanıb. Sinif müəllimlərinin pedaqoji prosesdə STEAM üzrə nəzəri və praktiki məlumatlarla inteqrativ təlimlərin reallaşdırmasına geniş imkanlar vardır.

Elm dünya və onun necə olması haqqında yeni biliklər əldə etmək axtarışıdır. Dünyanın izahının digər yollarından fərqli olaraq elm nəzəriyyə, fikirlər üzərində təcrübəyə əsaslanır.

***Texnologiya*** – məqsədlərin həyata keçirilməsində istifadə olunan hər hansı texnika, bacarıq, üsul və proseslərin məcmusudur.

***Mühəndislik*** – bir peşə sahəsi olub, elmi-nəzəri cəhətdən əsaslanmış və empirik təsdiq edilmiş biliklərin və üsulların sistematik olaraq mənimsənilməsi və tətbiq olunmasını əhatə edir.

***İncəsənət*** – insan hislərini təsvir edən vasitədir. Həmçinin istənilən fəaliyyət sahəsində insanın göstərdiyi yüksək bacarıq, məharət nəzərdə tutulur.

***Riyaziyyat*** – ədədlər (hesab və ədədlər nəzəriyyəsi), düsturlar və əlaqəli strukturlar (cəbr), fiqurlar və fəzalar (həndəsə), kəmiyyətlər və onların dəyişmələri (riyazi analiz) kimi mövzuların öyrənilməsini əhatə edir.

Milli kurikulumun ümumi prinsiplərinə istinad olunmaqla, ibtidai təhsilin məqsədinə uyğun olaraq elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrasiyasına şagirdlərdə maraq yaratmaq dövrün tələbidir. Bu işdə ibtidai sinif müəllimlərinin səriştə və peşəkarlıq bacarıqlarının daim yeniləşməsinə ehtiyac vardır [3, s.5].

Dahi Çin filosofu Konfutsi söyləmişdir: "Elm və təhsildən faydalanmağı bacaran xalq həmişə firavan yaşayar". İnkişaf etmiş ölkələrdə insan potensialının mühəndisləri – professor-müəllim heyəti bazar iqtisadiyyatı şəraitində, artıq çoxdan keyfiyyətli milli təhsil sistemi qurmuş, qiymətli insan potensialı formalaşdırmışlar. Biz də bu istiqamətdə işimizi inamla yerinə yetirmək üçün zəruri olan layihələri yerinə yetiririk. Məsələn, "STEAM Azərbaycan" layihəsi buna nümunə ola bilər.

XXI əsr müasir texnologiyaların, yeni elmi yanaşmaların, ixtiraların sürətlə inkişaf etdiyi dövrdür. Məzunlarımız müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Elə bu məqsədlə də Elm və Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq, Heydər Əliyev Fondunun dəstəyi ilə "STEAM Azərbaycan" layihəsinə start verdi. Layihənin keçirilməsində əsas məqsəd respublikamızın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqları sayılan kreativlik, əməkdaşlığın inkişaf etdirilməsi, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə etmək qabiliyyətlərini yüksəltməkdir.

STEAM – əcnəbi dildə olan sözlərin baş hərfləridir. Dilimizə tərcümədə elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. STEAM təhsilalanlarda tənqidi yanaşma, yaradıcı düşünmə, qazanılan biliklərin müqayisəli şəkildə anlaşılması, yaradıcı formada yeni layihələr əsasında biliyin möhkəmləndirilməsi, əməkdaşlıqetmə və s. kimi XXI əsr bacarıqlarını formalaşdırır. STEAM fənləri ayrılıqda öyrətmək əvəzinə, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirir.

STEAM təhsili dünya təhsil sistemində keyfiyyətin yüksəldilməsi ilə bağlı bir çox ölkələrin diqqətini cəlb edir. Məsələn, ABŞ təhsil sistemində məktəbəqədər yaş qrupundan başlayaraq, XII sinfə qədər bütün səviyyələrdə inteqrasiya olunmuş STEAM proqramı tətbiq olunur. Bundan əlavə, bəzi ölkələrdə (ABŞ, Sinqapur, İsrail, Türkiyə və s.) xüsusi STEAM məktəbləri, STEAM mərkəzləri yaradılıb.

STEAM təhsil metodu şagirdlərə beş sahənin – elm (science), texnologiya (technology), mühəndislik (engineering), incəsənət (art) və riyaziyyatın (math) birgə inteqrasiya olunmuş şəkildə tədrisi üzərində qurulub. STEAM kurikulumu fənlərarası, praktiki və tətbiqi dərslərdən ibarətdir. Elmin və texnologiyaların öyrədil-

məsində ənənəvi yanaşmadan fərqli olaraq, STEAM təhsili praktiki məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərir. Onları hansı peşəni seçmələrindən asılı olmayaraq həyata hazırlayır. Hədəflərdən biri də şagirdlərdə istehsal təfəkkürünün formalaşmasıdır. Şagird qarşısındakı alətin necə hazırlandığını, hansı materiallardan istifadə olunduğunu düşünərək, sual verərək öyrənmək bacarığına malik olmalıdır. Şagirdlər birgə işlədiyi vaxt verilən alətlərlə prototiplər yarada bilir. Sonra şagirdlər bunu konveyer üsulu ilə bazarda necə hazırlamaq lazım olduğunu düşünürlər. Şagirdlərin qruplarla işləməsi əsas prinsiplərdən olub layihə əsaslı öyrənmədir. Məsələn, riyaziyyatı daha yaxşı bilən şagird istehsalın riyazi tərəflərini təhlil edirsə, texnologiyanı dərk edən şagird qrafik savad nümayiş etdirir, rəsm bacarığı olan digər şagird isə onun dizayn işini görür. Beləliklə, qrup şəklində fənlərarası inteqrasiya ön plana çıxarılaraq görülən işlər sayəsində mükəmməl nəticə alınır [4].

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yük-səlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir…" fikrindən XXI əsrdə ölkənin prioriteti insan kapitalını formalaşdırmaqda konseptual ideya olaraq yararlanmaq təhsilin müasir tələblərə cavab verməsi ilə şərtlənir.

Pedaqoji ədəbiyyatda təhsilin keyfiyyəti "cəmiyyətdə təhsil prosesinin vəziyyətini və səmərəliliyini göstərən, şəxsiyyətin vətəndaşlıq, peşə və məişət səriştəliliyinin cəmiyyətin tələblərinə uyğunluğunu nümayiş etdirən sosial kateqoriya" kimi xarakterizə olunur. Bu işdə müəllim əməyini klassik pedaqoq K.D.Uşinski funksional olaraq şərh edərək demişdir: "Müəllim nə qədər ki, oxuyur, öyrənir, o, yaşayır, o, oxumağı dayandırdıqda ondakı müəllimlik ölür".

Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi məqsədi ilə ümumi təhsilin keyfiyyət göstəriciləri yüksəldilmişdir. Ali təhsilin Avropa standartlarına uyğunlaşdırılması, təhsildə idarəetmə sisteminin yenidən qurulması, insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində mühüm işlər görülmüşdür. Müasir standartlara cavab verən təhsil infrastrukturları yaradılmışdır. Müəssisələr müasir təhsilin tələblərinə uyğun avadanlıqlarla, informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilmişdir. Təhsilalanların yaş və fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və pedaqoji texnologiyalar hazırlanmışdır. Pedaqoji prosesdə innovasiyaların, xüsusilə ekstensiv innovasiyaların tətbiqi genişləndirilmişdir. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan təhsilində də intensiv innovasiyaların tətbiqinə ehtiyac vardır. Ona görə də təhsilverənlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsini təmin edən yeni sistemin yaradılması, müəllim əməyinin diferensiallaşdırılması və stimullaşdırılması tələb olunur. Müəllimin şəxsi keyfiyyətləri hesab olunan pedaqoji kompetensiyalar onun uşaqlara olan məhəbbətində, onlarla işləməkdən və ünsiyyətdə olmaqdan həzz almaqda özünü göstərir. İllərlə ağ xalatlı həkim olmaq, insanların fiziki sağlamlığının keşiyində dayanmaq arzusu ilə yaşayan, ali məktəbə qəbul zamanı bu istəyini reallaşdıra bilməyən, təsadüf nəticəsində biologiya müəllimliyi ixtisasına düşən və yaxud hüquqşünas, diplomat olmaq istəyən abituriyentlərin tarix, ədəbiyyat, sinif müəllimliyi ixtisaslarına daxil olmaları, həmin peşəni sevərək seçənlərə nisbətən yüksək bal toplamalarına baxmayaraq, onların gələcəkdə yaxşı müəllim olacaqlarına dəlalət etmir. Müəllim fitrətən müəllim, ustad olmalıdır. Müəllimin praktiki fəaliyyəti üçün zəruri olan təşkilatçılıq, tədqiqatçılıq, təlim (öyrətmə), perspektiv, kommunikativ, suqqestiv, elmi-idraki qabiliyyətləri pedaqoji peşəyə marağı və meyili olmayan, təsadüf nəticəsində bu ixtisasa düşən abituriyentlərdə yaratmaq olduqca çətindir [5, s.11].

Müəllimin lazımi biliyə, bacarıqlara, şagirdlərlə yaradıcı şəkildə işləyə bilmək texnologiyalarına sahib olması, pedaqoji prosesin incəliklərinə dərindən yiyələnməsi peşəkarlıqdır.

Səriştəlilik isə müəllimin pedaqoji prosesi məharətlə, daha əlverişli metodlarla reallaşdıra bilməsidir. Əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, şəxsin qazandığı bilik və bacarıqları konkret fəaliyyətin nəticəsinə çevril-

məsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərdiyi öz təsdiqini tapmışdır. Tədqiqat nəticəsində peşəkar və səriştəli müəllimin digər həmkarından fərqli cəhətləri aşağıdakı kimi təxmin edilir:

*– Bütün varlığı ilə peşəsinə bağlanan, işini sevən, tədris etdiyi fənni dərindən və hərtərəfli bilən, yaxşı öyrədən mütəxəssisdir, pedaqoji yeniliklərdən xəbərdardır və yeni pedaqoji təfəkkürə malikdir, özünə qarşı tələbkardır və öyrənməyə özündə həmişə ehtiyac hiss edir;*

*– pedaqoji hadisə və proseslərə səriştəliliklə yanaşır, mürəkkəb pedaqoji problemləri ustalıqla həll edir, istər təlim, istərsə də tərbiyə prosesində meydana çıxan problemlərin həllində fərqli və daha düzgün qərarlar qəbul edir, operativ metodlardan istifadə etməklə onun həllinə nail olur;*

*– daim yeniliklər axtarması, ona meyilliyi, pedaqoji prosesə yaradıcı yanaşmaları, mövcud pedaqogikanın müəyyənləşdirdiyi müasir yanaşma tərzlərindən məharətlə istifadə etmələri ilə seçilməklə, onların tədris etdikləri dərslər və apardıqları tədbirlər özünün orijinallığı ilə seçilir;*

*– təkcə bu gün üçün deyil, gələcək üçün çalışır, planlaşdırdığı işlərin nəticələrini əvvəlcədən görə bilir, şagirdlərə və pedaqoji prosesə nikbin yanaşır, onların problemlərinə laqeyd qalmır və uşaqlara öz övladları kimi münasibət bəsləyir;*

*– yüksək pedaqoji mədəniyyətə malik olmaqla,dərs dediyi şagirdlərə dəyər verir, onları şəxsiyyət kimi qəbul edir;*

*– nitqi, davranışı, mimikası, pantomimikası təsirlidir, verbal və qeyri-verbal ünsiyyət tərzləri bir-birini tamamlayır, keçdiyi bütün dərslər şagirdlərin beyninə sanki daş üzərində yazı kimi həkk olunur;*

*– peşəkar və səriştəli müəllim özünə, dediyi sözə inamlıdır, şagirdlərinə də inam göstərir [5, s.15].*

Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq müəyyənləşdirilmişdir. Təcrübədən məlumdur ki, insanların keyfiyyətli təhsilalma inkanı olarsa, onlar yoxsulluğa son qoya bilər. Təhsil bütün dünyada insanların sağlam və stabil həyat sürməsinə şərait yaradır. İnsan münasibətlərində tolerantlığın yüksəldilməsinə və daha sülhsevər cəmiyyətin formalaşmasına kömək edir.

Müasir dövrdə başlıca tələb cəmiyyəti elmi innovasiyalarla fəaliyyətə hazırlamaq, ondan istifadə etmək üçün yetkinləşdirməkdən ibarətdir. Müasir innovasiyalarla tanış olmaqla, onlarla əməli iş vərdişlərinə yiyələnməklə istedad, güclü nəzəri bilik, dərin hafizə, intellektual səviyyə fayda vermiş olar. İnteqrasiya yolu ilə birgə səylər nəticəsində gənclərin təhsil müddətində elmi innovasiyalarla tanış olmalarına çalışmalıyıq. Elmi innovasiyaların təhsil mühitinə transferi son dərəcə zəruri amildir. Bunun üçün: tədrisin elmi innovasiyalara əsaslanan prioritet elmi istiqamətlər əsasında təşkili; təhsil alanların elmi nailiyyətlərə yiyələnməsi; təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi kimi tələblərin reallaşdırılmasına nail olunmalıdır.

Texnologiya cəmiyyəti formalaşdırır, yoxsa onun ehtiyacları və istəyi texnoloji sənayenin inkişafını müəyyənləşdirir? Bu suala ***iki təzadlı*** yanaşma var. Bir qrup iddia edir ki, texnoloji inkişaf cəmiyyəti formalaşdırır və onun inkişaf istiqamətlərini müəyyən edir. Digər qrupa görə isə cəmiyyətin istəkləri texnologiya sənayesinin vəziyyətini müəyyən edir. Deməli, texnoloji sənaye sırf cəmiyyətin ehtiyaclarına görə çalışır. İnsanların həyat şəraitini daha da yaxşılaşdırmaq istəyi texnologiyanın inkişafına ciddi təsir göstərir. Texnologiya fənninin qarşısında duran əsas vəzifələrdən biri təlim-tərbiyə işinin keyfiyyətini yaxşılaşdırmaq və şagirdin əmək qabiliyyətini müasirləşdirməkdir. Qabaqcıl texnologiya müəllimləri təkcə texnologiya dərslərində kompüterin əsaslarını öyrətməklə kifayətlənmir, həmçinin dərsdə öyrəndikləri nəzəri bilikləri təcrübəyə tətbiq etməklə onlarda bacarıq və vərdişləri formalaşdırır. Texnologiya təliminin məzmunu milli və dünya təcrübəsinə əsaslanır. Şagirdlərin əldə edəcəyi bilik və bacarıqları daha aydın dərk etmək, onu sistemləşdirmək üçün məzmun xətləri (emal texnologiyaları; texnika elementləri; məişət mədəniyyəti; qrafika) müəyyən olunmuşdur. Kurikulumun tələblərinə uyğun olaraq, texnologiya dərslərinin məzmun xətlərinin əsas və alt standartlarına uyğun təşkili, fəndaxili və fənlərarası inteqrasiya, müasir təlim texnologiyaları, müəllimin təlim işinin planlaşdırılması, hazırlığı, səriştə və peşəkarlığı, şagird

nailiyyətlərinin səviyyələrlə dəyərləndirilməsi kimi didaktik məsələlərə proqrama müvafiq olaraq mühazirə materiallarında aydınlıq gətirilmişdir [6, s.5].

**Nəticə.** XXI əsrdə ölkənin prioriteti insan kapitalının formalaşdırılması keyfiyyətli təhsilin, təlim texnologiyaları əsasında bacarıqların gənc nəslə aşılanmasından keçir. İnkişaf etmiş Qərb dövlətlərinin təhsil sistemində istifadə edilən aktiv və ya interaktiv təlim metodlarından respublikamızın təhsil müəssisələrində uğurla istifadə edilməkdədir. Bu metodların şagird şəxsiyyətinin formalaşdırılmasında xüsusi yeri vardır. Təlimi humanistləşdirmədən, humanitarlaşdırmadan, demokratikləşdirmədən şagird şəxsiyyətini formalaşdırmaq mümkünsüzdür. Bu prinsiplər milli zəminə, bəşəri dəyərlərə əsaslanan dünyəvi təhsil sisteminin yaradılmasının, təhsilalanın şəxsiyyət kimi formalaşdırılması üçün onun təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektinə çevrilməsini bir vəzifə kimi qarşıya qoyur. Yeni təlim texnologiyalarında şagirdlərin intellektual, mənəvi cəhətdən inkişaf etdirilməsi ön plana keçirilir. Yeni texnologiyaların təlimdə tətbiqi şagirdlərin öz fikirlərini aydın, məntiqi ardıcıllıqla ifadə etmələrinə şərait yaradır. Bu metodlar şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişafını təmin etməklə, onlarda yüksək ünsiyyət mədəniyyəti formalaşdırır.

## ƏDƏBİYYAT


1. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. Bakı, Çap ART, 2017, 28 səh.
2. Savvides A., Stengos T. Human capital and economic growth. California, 2009.
3. Ağayev Ş. İbtidai sinif müəllimlərinə kömək. Bakı, İMZA, 2022, 184 səh.
4. “Azərbaycan müəllimi” qəzeti, 04 sentyabr 2020.
5. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri (monoqrafiya). Bakı, Elm və təhsil, 2018, 208 səh.
6. Ağayev Ş. Texnologiya və onun tədrisi metodikası (bakalavriatlar üçün mühazirə mətnləri). Bakı, ADPU-nun nəşriyyatı, 2021, 315 səh.


**Sh.Aghayev**

## In the 21st century, the priority of the country is the human capital formation


**Abstract**

The article justifies the continuous increase of the share of human capital in the national wealth through quality education that leads to comprehensive development, giving special importance to lifelong education based on the harmonious development of competence, social habits and skills in modern times. In addition to these factors, the need to ensure the competitiveness of the priority of higher education institutions at the international level in order to create human capital with high professional skills on account of quality education, as well as the diversity of human capital due to its nature, the generality of habits and competence for events and situations are stated by scientific facts.


**Ш.Агаев**

## В XXI веке приоритетом страны является формирование человеческого капитала


**Аннотация**

В статье обосновывается постоянное увеличение доли человеческого капитала в национальном богатстве за счет качественного образования, что ведет к всестороннему развитию, придавая особое значение непрерывному образованию, основанному на гармоничном развитии компетенций, социальных привычек и навыков в современном мире. Помимо этих факторов, необходимость обеспечения конкурентоспособности приоритетных высших учебных заведений на международном уровне в целях формирования человеческого капитала с высокими профессиональными навыками за счет качественного образования, а также разнообразие человеческого капитала за счет его характера, привычка и компетентность могут быть общими для событий и ситуаций, отмеченных научными фактами.